**Şəhidlər xiyabanı**

Kədərimin qışı, baharı, yayı,
Tarımın, kamançamın,
Qaboyumun harayı.
Segahımın bəm xalı.
Babam Dədə Qorqudun
«Son ucu ölümlü dünya»—misalı,
Şəhidlərimin xəyalı —
Şəhidlər xiyabanı.

Dünyanın ən yeni ziyarət dağı,
Haqlının haqsıza kin, nifrət dağı,
Gələçək illərə ol ibrət dağı.
Ey ana torpağa sədaqət dağı,
Namus, şərəf dağı, ləyaqət dağı!
Şəhidlər xiyabanı.

Səslə. xəbərdar et, sən də dünyanı:
Zülmün qılıncına boyun əymədi
«Öldüm ki, şərəfim ölməsin!»—dedi
Şəhid oğulları Azərbayçanın...
Bakımın «ölməzlik» adlı nişanı—
Şəhidlər xiyabanı...

Şəhidlər xiyabanı : Şəhidlər xiyabanında düşüncələr
// Azərbaycan gəncləri. – 1991. – 22 yanvar.